*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 460-467*

https://doi.org/10.62837/2025.10.460

**SƏKİNƏXANIM XALİQ QIZI ƏLİYEVA**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**squrbanlis@mail.ru**

# NİL QEYMANIN "AMERİKAN TANRILARI" VƏ MADLEN MİLLERİN "SİRSEYA" ROMANLARINDA MİFOLOGİYANIN SOSİAL VƏ FEMİNİST KONTEKSTDƏ İNTERPRETASİYASI

**Açar sözlər:** Nil Qeyman, Madlen Miller, Amerikan tanrıları, Sirseya, mif, sosial, feminist.

**Key words:** Neil Gaiman, Madeleine Miller, American Gods, Circe, myth, social, feminist.

**Ключевые слова:** Нил Гейман, Мадлен Миллер, Американские боги, Цирцея, миф, социальный, феминистский.

Əsası XIX əsrdən başlamış mifə qayıdış tendensiyası günümüzə qədər aktuallığını qorumaqda və yüksələn xət üzrə inkişaf etməkdədir. İlk baxışdan, modern dünya və mif fenomenləri bir-birinə nə qədər zidd görünsə də, əslində, biri digərinin bünövrəsi, ibtidai ifadəsi, ayrılmaz parçasıdır. Bu haqda məşhur fransız ədəbi tənqidçi, nəzəriyyəçi və semiotik Rolan Bart (*Roland Barthes*) maraqlı bir fikir səsləndirmişdir: "*What is a myth today? I shall give at the outset a first, very simple answer, which is perfectly consistent with etymology: myth is a type of speech*" (Mif bu gün nədir? Əvvəlcə ilk, çox sadə bir cavab verəcəm, hansı ki, etimologiyaya mükəmməl uyğun olan çox sadə bir cavab verəcəyəm: mif nitqin bir növüdür) [1, s. 107]. Həqiqətən də, ədəbiyyat, rəssamlıq, kino sənəti, fəlsəfə, sosiologiya kimi sahələrə siraət etmiş miflər hər bir xalqın milli şüurunda, genetik kodunda dərin izlər buraxdığından yaranışından uzun zaman keçməsinə baxmayaraq, nitqdə öz aktuallığını qoruyub saxlayır. Mifologiyaya zaman-zaman yeni baxış bucağından müraciət də məhz bununla bağlıdır. Mifə yenidən qayıdış, mifin yenidən rekonstruksiya edilərək müasir dünyanın problemlərinə uyğun şəkildə təsvir olunması çağdaş ingilis yazıçısı Nil Qeyman (*Neil Gaiman*) və çağdaş amerikalı yazıçı Madlen Millerin (*Madeline Miller*) yaradıcılıqlarında öz parlaq əksini tapmaqdadır.

Müasir dünya ədəbiyyatında interpretasiya ustası kimi tanınan Nil Qeyman 2001-ci ildə yazdığı "Amerikan tanrıları" (*American Gods*) romanı ilə çoxsaylı mükafatlar və dünya şöhrəti qazanmışdır. Qədim mifləri müasir dünya ilə birləşdirən bu əsər inanc, tanrı, din kimi mövzulara fərqli baxış bucağı qatır. Romanın başlıca mövzusunu yeni və köhnə tanrıların həyatda qala bilmələri üçün insanların onlara inanmasına duyduqları ehtiyac təşkil edir. Miflərdən tandığımız qədim tanrılar indi

Media, Texnologiya və İnternet kimi yeni tanrıların onlardan üstün tutulduğu bir cəmiyyətdə öz güclərini və əhəmiyyətlərini qorumağa çalışırlar. Roman arvadı və ən yaxın dostunun maşın qəzasında ölümü səbəbindən həbsxanadan erkən buraxılan Şedou Muun adlı protaqonistin anidən özünü qədim mifoloji tanrılar ilə yeni tanrılar arasındakı mübarizəsinin içində tapmasından bəhs edir. İtirəcək heç nəyi olmayan Şedou sirli təbiəti ilə seçilən Uensdeyin cangüdəni və köməkçisi kimi işə başlayır və onun maraqlı şəxsiyyəti ilə yaxından tanış olur. Tezliklə, Şedou əslində Uensdeyin Skandinav tanrısı Odinin inkarnasiyası olduğunu öyrənir. Şedou Uensdeyin dünyasında irəlilədikcə köhnə tanrıların hələ də Amerikada yaşadığını və oraya köç edən miqrantların inanclarını da özləri ilə bu yeni torpaqlara gətirdiklərini öyrənir. Şedou Uensdey ilə Amerikada səyahət edərkən inancın gücü ilə gerçəkliyi formalaşdıra biləcəyi bir dünya kəşf edir. Şedou cənab Nensi (*Anansi*), Çernoboq (*Czernobog*), Ostara (*Easter*), Viski Cek (*Wisakedjak*), Con Çapman (*John Chapman*), cənab İbis və Cakel (*Mr. Jacquel and Mr. Ibis*) kimi Uensdeyin bir çox tanrı müttəfiqləri ilə tanış olur. Şedou bu personajlarla olan əlaqəsi vasitəsilə köhnə və yeni tanrılar arasında davam edən müharibə haqqında yeni biliklər əldə edir. Macəraları irəlilədikcə isə, Şedou özünü cənab Uensdeyin köhnə tanrıları yeni tanrılara qarşı son bir döyüş üçün bir araya gətirmək məqsədilə hazırladığı gizli planın içində tapır. Özünü diqqətdən kənarda qalmış və təcrid olunmuş hiss edən köhnə tanrılar Amerika sivilizasiyasındakı güclərini və rollarını bərpa etmək istədiklərindən döyüşməyə can atırlar: "*People believe, thought Shadow. It's what people do. They believe, and then they do not take responsibility for their beliefs; they conjure things, and do not trust the conjuration. People populate the darkness; with ghosts, with gods, with electrons, with tales. People imagine, and people believe; and it is that rock solid belief, that makes things happen.*" (İnsanlar inanır deyə düşündü Şedou. İnsanların etdikləri budur. İnanırlar və sonra inanclarına görə məsuliyyət daşımırlar; nəsnələri sehrləyir və sehirə etibar etmirlər. İnsanlar qaranlığı ruhlar, tanrılar, elektronlar, nağıllar ilə doldururlar. İnsanlar xəyal edirlər və insanlar iman gətirirlər; və hər şeyi baş verdirən bu qaya kimi bərk inamdır) [2, s. 573] Şedou isə istəmədən bu güc döyüşündə piyona çevrilir və kim olduğu həqiqəti ilə mübarizə apararkən sədaqəti sınanır. Sonda, protaqonist öz kimliyini və bəşəri rolunu dərk edərək böyük müharibənin qarşısını almağı bacarır.

"Amerikan tanrıları" fantaziya, mifologiya və sosial satiranın vəhdətindən doğan dərin və düşündürücü bir romandır. Maraqlı süjet xətti, canlı personajları və inanc sistemlərinə dair fərqli fikirləri ilə bu kitab oxucuları inancın təbiətini və daim dəyişən dünyada tanrıların dəyişən mənzərəsini nəzərdən keçirməyə dəvət edir. Qeyman şüurun inkişafı və mədəni dəyişikliklər nəticəsində tanrıların və miflərin hər bir coğrafiyaya necə uyğunlaşdırıldığını və təkamül etdiyini əsərdə xüsusi diqqət mərkəzinə almışdır. Müəllif sözlərin gücü ilə oxucunu tanrıların insanlarla birlikdə

yaşadığı bir Amerikaya apararaq ona bir-birinə zidd və imkansız kimi görünən əsrarəngiz dünya təqdim edir.

Eynilə, çağdaş Amerika yazıçısı Madlen Millerin "Sirseya" (*Circe*) romanı da mifin interpretasiyası üzərində qurulmuşdur. Latın və yunan dilləri müəllimi olan müəllif mifologiyaya xüsusi maraq duymuş və yaradıcılığında sıxca müraciət etmişdir. Homerin "Odisseya"sından tanıdığımız Sirseya obrazı Millerin romanında fərqli qiyafədə qarşımıza çıxır. Hadisələri və həyat hekayəsini öz dilindən və baxış bucağından nəql edən Sirseya əvvəlcə ailəsini təqdim edərək, tanrılar aləmində həyatın necə olduğunu təsvir edir. Sirseya əmisi Prometeyin insanlara odu verərək köməklik göstərdiyinə görə baş allah Zevs tərəfindən Qafqaz dağlarında qayaya zəncirlənərək bir qartal tərəfindən hər gün ciyərinin didilməsi cəzasına çox məyus olur. Cəzalandırılmış şəxslərə yaxınlaşmağın düzgün olmadığını bilsə də, əmisinin yanına gedərək ona dəstək olmağa çalışır. Ailəsindəkilərin onu sevmədiyini, bacarıqsız və çirkin olduğunu düşündüklərini deyir. Bu səbəbdən Sirseya özünün özgələşmiş, tənha dünyasında yaşayır. Lakin bir gün sahildə gəzişərkən Qlavk (*Glaukos*) adlı ölümlü bir balıqçı ilə tanış olur. Onunla vaxt keçirməyə başlayan Sirseya zamanla bundan daha çox zövq alır və hər gün görüşüb xoş vaxt keçirir. Qlavk atası və anasına baxdığı üçün balıq tutaraq pul qazanmağa məcburdur. Bundan məyus olan Sirseya nənəsi ilahə Tefidadan Qlavkın qarmağına yüzlərlə balıq düşürməsi üçün kömək istəyir. Nəvəsinin üzüntüsünə dayana bilməyən Tefida onun istəyini reallaşdırır. Qarmağının dolub daşması Qlavkı çox sevindir. Bundan xoşbəxt olan Sirseya ona qarşı olan duyğulanı dilə gətirir. Lakin Qlavkın bir gün öləcəyi özünün isə ölümsüz olmağı düşüncəsi onu məhv edirdi. Onun ölməsinə qatlana bilməyəcəyini düşünən Sirseya çıxdığı bir gəzinti sırasında diqqətini çəkən bir çox ot və çiçəkləri toplayıb Qlavkı tanrı edəcək bir sehr etmək qərarına gəlir. "*I thought once that gods are the opposite of death, but I see now they are more dead than anything, for they are unchanging, and can hold nothing in their hands."* (Bir zamanlar tanrıların ölümün ziddi olduğunu düşünürdüm amma artıq hər şeydən daha ölü olduqlarını görürəm çünki, heç dəyişmirlər və heç bir şeyi əllərində tuta bilmirlər.) [3, s. 392] Lakin ölümsüzlərin dünyasında bu böyük bir günah idi və cəzası kifayət qədər ağır idi. Buna baxmayaraq, sehri həyata keçirən Sirseyanın bəxti gətirdi və heç kim bu vəziyyəti anlamadı. Tanrılar Qlavkı aralarına aldılar və tezliklə o, nimfaların diqqət mərkəzinə çevrildi. Qlavkla evlənmək üstündə yarışa girən nimfalar arasından Ssilla (*Skylla*) qalib çıxır. Bunu öyrənən Sirseya qısqanclıqdan dəliyə dönür və bir sehr edərək onu qorxunc yaratığa çevirir. Bir müddət sonra bu vəziyyət pis bir hal almağa başlayır və Sirseya ailəsinə etdiyi bütün yanlışlıqları etiraf edir. Zevs onun Qlavkı tanrıya, Ssillanı bədheybətə çevirdiyi öyrəndikdə cəza olaraq ömrünün sonuna qədər Eeya (*Aiaie*) adlı bir adaya sürgün edilməsi haqda qərar verir. Adadaykən də bitkilərdən sehr düzəldir və heyvanları bəsləyib qorunmaq üçün onlardan istifadə edir. Günlərin bir günü Odissey adlı bir dənizçi və heyəti bu

adaya sığınası olur. Sirseya Troya müharibəsindən çıxan və uzun müddətdir ölkələrinə qayıda bilməyən gəmi heyətinə bir müddət özlərini toplayıb geri dönmələri üçün köməklik etməyə qərar verir. Bu müddətdə Odisseylə xoş zaman keçirirlər və birlikdə olurlar. Bu səbəbdən, Sirseya Odisseyin adadan getməməsi üçün hər dəfə bir bəhanə tapır və bir ilə yaxın onun yanında qalmağına nail olur. Lakin yaz gələn kimi gəmi heyəti ölkələrinə dönür. Odissey gedəndən sonra Sirseya özündə qəribə hallar hiss edir və tezliklə hamilə olduğu məlum olur. Anidən də doğum edən Sirseyanın Odisseydən olan uşağı ölümlü olur. Bu səbəbdən oğlu Teleqonu (*Telegonos*) çox çətinliklərlə böyüdür. Yetkinlik yaşına çatdıqda Teleqon atasının kim olduğunu anasından öyrənir və onun yanına getmək istədiyini deyir. Sirseya oğlunun gedişinə icazə versə də, atası onu heç də xoş qarşılamır. Teleqonu düşmən sanan Odissey onu öldürmək istəyir, lakin Sirseyanın oğluna verdiyi zəhərli quyruq onu bu vəziyyətdən xilas edir. Əvəzində isə, Teleqonun nizəsinə toxunan Odissey ölür. Bu səbəbdən, Teleqon atasının ilk arvadı Penelopa və oğlu Telemaxla birlikdə Sirseyanın yaşadığı adaya gəlir. Sirseya başda çox təəccüblənsə də, onları qəbul edir və birlikdə yaşamağa başlayırlar. Bir gün ilahə Afina adaya gələrək Telemaxın Odisseyin varisi olduğunu, bu səbəbdən ölkə başçısı olmalı olduğunu deyir. Lakin Telemax bu təklifi qəbul etmir, onun yerinə isə Teleqon Afina ilə birlikdə getmək istədiyini deyir. Afinaya zərrə qədər güvənməyən Sirseya oğluna qarşı çıxsa da, Teleqon fikrindən dönmür. Beləcə, adada Penelopa və Telemaxla qalan Sirseya atasını yanına çağırıb ondan Zevslə görüşüb cəzasının artıq bitməsi üçün danışmasını istəyir. Atasını yola gətirdikdən sonra danışıqları müsbət nəticə verir və cəzası qaldırılır. Beləcə, sonda Telemaxla birlikdə atasının yaşadığı ada ilə Eeya adası arasında gedib gələrək müxtəlif bitkilər toplayıb yaşamına davam edir.

Ailəsi tərəfindən sevilməyən Sirseyanın öz dilindən eşitdiyimiz bu hekayəsi Homerin bizlərə təqdim etdiyi ağ atlı şahzadəsini gözləyən, Odisseyin onu xilas etməsinə möhtac qadın hekayəsinə tamamilə yaddır. Millerin təsvir etdiyi Sirseya nəinki zəif və aciz, hətta qədim yunanlıların patriarxal panteonlarında baş allah Zevsə belə baş qaldıra bilmiş bir obrazdır. Əsər də məhz digər tanrılardan fərqli olaraq xüsusi gücü olmayan, çəlimsiz tənha və özgüvənsiz Sirseyanın necə güclü bir qadına çevrildiyini təsvir edir. Hələ özündəki qabiliyyəti kəşf etməmişdən əvvəl ölümlü birini tanrıya çevirmək, eləcə də ölümsüz birini bədheybətə çevirmək kimi Olimp tanrılarının belə gücünün yetmədiyi şeyləri bacarmışdı. Ümumiyyətlə, Helios və Perseidanın uşaqlarının hər birində digər tanrılardan fərqli güclərin olduğu ortaya çıxır. Belə ki, onlar dünyada mövcud olan məhsullar və əfsunlu sözlərlə sehr edə bilirdilər. Bu uşaqları bir növ cadugər də hesab etmək olar. Bu cadugərlərdən biri olan Sirseya da məhz etdiyi sehrlərə görə sürgün edilmişdir. Bütün mif və əfsanələrdə Sirseyanın həyatı haqqında bir məqam nəql edilir: Eeya adasına gələn ziyarətçiləri donuza çevirməsi. Lakin Miller öz əsərində bu ziyarətçilərin heç də xoş niyyətli olmayıb, Sirseyanın sərvətindən və bədənindən faydalanmaq istədiklərini

göstərir. Bu səbəbdən, özünün qorumaq üçün onları donuza çevirən Sirseyaya müəllif bir növ haq qazandırmağa çalışır. Ümumiyyətlə, əsərin mərkəzində həmişə Sirseya dayanır və oxucu hər kəsə məlum olan mifləri bu qadın təhkiyəçinin dilindən bir-biri ilə əlaqələndirilmiş formada eşidir. Əlbəttə burada müəllif təxəyyülünün və uydurmasının rolu böyükdür və bilinən əfsanələri yenidən qurub yaratdığı məlumdur. Bu məqamda Millerin üslubu Nil Qeyman ilə kəsişir. Təhlil apararkən məlum olur ki, miflərin yenidən şərh edilməsi baxımından Nil Qeymanın "Amerikan tanrıları" və Madlen Millerin "Sirseya" romanı həm oxşar, həm də çox fərqli cəhətlərə malikdir. Hər iki müəllif mifləri yenidən şərh edərkən güclü obrazlarlar sisteminə diqqət yetirsə də, mövzular, təhkiyə üslubu və miflərə münasibət baxımından fərqli istiqamətlərdə irəliləmişdirlər.

Hər iki müəllif miflərin təkcə keçmişə aid olmadığını, hazırki günümüzdə də böyük məna kəsb etdiyini göstərməyə çalışmış, miflərin zamansızlığını vurğulamışlar. Qeyman da, Miller də əsərlərindəki tanrı obrazlarını və mifik qəhrəmanları antropomorflaşdırmış, onlara güclü, lakin bir o qədər də qüsurlu xüsusiyyətlər verərək insani cəhətlərə malik formada təsvir ediblər. Eləcə də, hər iki yazıçı miflərə ənənəvi təhkiyə üsulundan kənara çıxaraq müxtəlif rakurslardan yanaşmış və fərqli perspektivdən çıxış edərək onları yenidən yazmışdırlar.

Hər iki müəllif miflərə müasir perspektivdən yanaşaraq onları yenidən şərh etmiş, bununla da, modern dövrün oxucusuna xitab edə bilməyi bacarmışdırlar. "Sirseya"da bir mifoloji personaj müasir təhkiyə üsulu ilə dərindən təsvir edilmiş, "Amerikan tanrıları"nda isə mifoloji obrazlar birbaşa müasir dünyanına içinə yerləşdirilmişdir. Hər iki əsərdə mifoloji obrazlar insani xüsusiyyətlərə malikdirlər. Cadugər Sirseya nə qədər ilahi xüsusiyyətlərə malik olsa da, o, eyni zamanda insani duyğulara, axtarışlara və zəif cəhətlərə sahib bir personaj kimi təqdim olunub. "Amerika tanrıları"nda isə Odin, Mama-Ji, Ostara, Çernoboq kimi mifoloji obrazlar qüdrətli tanrılar olmalarına baxmayaraq, müasir dünyada insani cəhətlərə, zəifliklərə və itkilərə malik formada təsvir edilib. Eləcə də, hər iki romanda klassik miflər olduğu kimi çatdırılmır, yeni çərçivədə nəzərdən keçirir. Miller cadugər Sirseyanı Homerin "Odisseya"sındakı qiyafəsindən çıxarıb güclü və müstəqil bir personaj kimi mərkəzləşdirmiş, Qeyman isə sosial, iqtisadi və siyasi metafora kimi miflərdən istifadə edərək müasir dünyada müxtəlif xalqların sitayiş etdiyi tanrıları şübhə altına almışdır.

Bununla belə, Nil Qeyman və Madlen Miller mifləri müasir formada yenidən formalaşdıraraq nəql etsələr də, mifi işləmə formaları baxımından fərqlənirlər. Belə ki, Nil Qeyman mifləri daha böyük təhkiyələrin içərisinə yerləşdirmiş və müasir dünya ilə qarışdırmışdır. "Amerikan tanrıları"nda müəllif müasir həyatda miflərin güc dinamikası, dəyişkənliyi və rezonansı üzərində daha çox dayanmışdır. Qeyman ənənəvi mifləri dağıdır, postmodern və fantastik yanaşma ilə ironik dildən istifadə

edərək onları yenidən qurur. Mifoloji obrazları müasir dünyaya gətirməklə yanaşı, onlara yeni qiyafələr və mənalar qazandırır.

Miller isə mifləri ayrı-ayrı personajların prizmasından yanaşaraq dərindən təsvir edir. "Sirseya"da müəllif miflərin əsas hadisələrindən çox, mifik qəhrəmanların psixoloji cəhətləri və daxili səyahətlərini vurğulamışdır. Miller qədim Yunan mifologiyasının təfərrüatlarına xüsusilə sadiq qalaraq miflərə tarixi və emosional realizmlə yanaşır. Qadın yazıçı olaraq Miller daha çox feminist perspektivdən istifadə edərək miflərdə qadın personajların ənənəvi rollarını şübhə altına salır. Eləcə də, daha çox lirik və emosional dildən istifadə etməyə, mifləri romantik və humanist formada nəql etməyə üstünlük verir.

Sadalananları analiz edərək deyə bilərik ki, Miller mifləri yenidən şərh edərkən daha çox obraz əsaslı yanaşma nəql edir; Qeyman isə mifləri daha böyük mədəni təhkiyə kimi təsvir edir. Eləcə də, Miller miflərə mümkün qədər sadiq qalaraq nəql etsə də, Qeyman mifləri sərbəst şəkildə yenidən formalaşdırır. Bundan başqa, Millerin dili poetik və emosionaldır; Qeymanın dilində ironik, yumoristik və çox vaxt qaranlıq bir atmosfer seçilir. Həmçinin, Miller mifləri onların tarixi konteksti ilə əlaqəli şəkildə işlətsə də, Qeyman çox vaxt onları müasir dünyaya gətirməyi üstün tutur. "*Madeline Miller offers us a compelling arc, and in doing so makes Circe multidimensional in a way that struggles toward empowerment through transformation and isolation. However, Neil Gaiman's American Gods uses a different technique by placing mythological beings in contemporary society, examining belief, in parallel with the power structures and social evolution.*" (Madlen Miller bizə diqqətçəkən bir hekayə təklif edir və bunu edərək Sirseyanı transformasiya və izolyasiya yolu ilə güclənməyə çabalayacaq formada çoxölçülü hala gətirir. Lakin, Nil Qeymanın "Amerikan tanrıları" mifoloji varlıqları müasir cəmiyyətə yerləşdirərək, güc strukturları və sosial təkamüllə paralel olan fərqli bir texnikadan istifadə etmişdir.) [5]

Mifoloji zamana yanaşma tərzi "Amerikan tanrıları" və "Sirseya" arasındakı əsas fərqlərdən biridir. Miller hadisələri bütünlüklə mifoloji dövrdə qurmuş və antik dünyadan kənara çıxmadan hekayəsini nəql etmişdir. Zaman irəlilədikcə isə hadisələr mifik dövrün sərhədləri daxilində formalaşmağa davam edir. Millerdən fərqli olaraq Qeyman mifologiyanı müasir dövrə gətirir, tanrıları müasir dünyada yaşayan personajlar kimi təsvir edir.

Nəticə olaraq, Madlen Miller mifləri şəxsi və emosional gerçəklik kontekstində yenidən şərh edir; Nil Qeyman mifləri postmodern və fantastik formada yenidən yaradır. Hər ikisi mifləri müasir oxucular üçün mənalı etsə də, Miller daha obraz mərkəzli və əslinə sadiq təhkiyə təklif edir, Qeyman isə mifləri parçalarına ayıraraq yenidən strukturlaşdırır.

**Ədəbiyyat siyahısı:**

1. Barth R. Mythologies. NY: The Noonday press, 1991. 83 p.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 460-467*

2. Gaiman N. American Gods. GB: Headline book publishing, 2001. 644 p.
3. Miller M. Circe. USA: Little, Brown and Company, 2018. 400 p.
4. Quliyev Q. XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. Bakı: Çaşıoğlu Nəşriyyatı, 2011. 207 s.
5. https://www.researchgate.net/publication/389269245_Reimagining_the_Past_The_Use_of_Mythology_in_Contemporary_Literature

**САКИНАХАНЫМ АЛИЕВА**

## РЕЗЮМЕ
## ИНТЕРПРЕТАЦИЯ МИФОЛОГИИ В РОМАНАХ НИЛА ГЕЙМАНА «АМЕРИКАНСКИЕ БОГИ» И МАДЛЕН МИЛЛЕР «ЦИРЦЕЯ» В СОЦИАЛЬНОМ И ФЕМИНИСТСКОМ КОНТЕКСТЕ

В современную эпоху, несмотря на столетия, прошедшие с момента возникновения мифологии, проникшей во многие сферы жизни, она продолжает сохранять свою актуальность и обретать новые черты. Возвращение к мифу, его реконструкция и описание в соответствии с проблемами современного мира – приёмы, часто используемые современными писателями, которые позволяют мифу не терять своей жизненной силы и развиваться. «Американские боги» Нила Геймана и «Цирцея» Мадлен Миллер – весьма интересные примеры интерпретации мифов в современной литературе. Оба произведения возрождают древнюю мифологию; в «Американских богах» отражено, как боги разных народов живут в современной Америке, а в «Цирцее» – пересказ древних событий с точки зрения одной из греческих богинь. В обоих произведениях боги обладают человеческими чертами и взаимодействуют со смертными существами, и это взаимодействие приводит к их изменению. Гейман соединил древние мифы с такими идеями, как технология, вера, идентичность и капитализм, в то время как Миллер представил их с современной точки зрения, сочетая с такими идеями, как освобождение женщин, самосознание и борьба с патриархальным миром. В результате в этих произведениях, написанных метафорическим и символическим языком, Гейман интерпретировал социальную функцию мифа, а Миллер – его психологические и сексуальные аспекты.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 460-467*

**SAKİNAKHANİM ALİYEVA**

**SUMMARY**

**İNTERPRETATİON OF MYTHOLOGY İN THE NOVELS OF NEİL GAİMAN'S "AMERİCAN GODS" AND MADELİNE MİLLER'S "CİRCE" İN SOCİAL AND FEMİNİST CONTEXT**

In modern period, despite the centuries that have passed since the emergence of mythology, which has permeated many areas of life, it continues to maintain its relevance and new features are emerging. Returning to myth, reconstructing the myth and describing it in accordance with the problems of the modern world are techniques often used by modern writers, which ensure that myth does not lose its vitality and develops. Neil Gaiman's "American Gods" and Madeline Miller's "Circe" are very interesting examples in terms of interpretation of myths in modern literature. Both works revive ancient mythology; in "American Gods" it is reflected how the gods of various nations live in modern America, and in "Circe" it is a retelling of ancient events from the perspective of one of the Greek goddesses. In both works, the gods have human characteristics and interact with mortal beings, and this relationship causes them to change. Gaiman has combined ancient myths with ideas such as technology, faith, identity, and capitalism, while Miller has presented them from a modern perspective, combining them with ideas such as women's liberation, self-awareness, and the struggle against a patriarchal world. As a result, in these works, both written in metaphorical and symbolic language, Gaiman has interpreted the social function of myth, while Miller has interpreted the psychological and sexual aspects of myth.

**Rəyçi: prof. A.Z.Sabitova**